**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsinin təmin edilməsi haqqında**

"Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair Tədbirlər Planı" təsdiq edilsin (1 nömrəli əlavə).

2. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılsın və onun tərkibi təsdiq edilsin (2 nömrəli əlavə).

3. Bu Sərəncamın 2-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlərin koordinasiyasını və digər məsələlərin yerinə yetirilməsini təmin etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "11" yanvar 2024-cü il

№ 3s

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 11 yanvar tarixli 3s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

**1 nömrəli əlavə**

## Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair

## T Ə D B İ R L Ə R P L A N I

| Sıra №-si | Tədbirin adı | İcraya məsul təşkilat | İcra müddəti |
|---|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş yubiley tədbirinin keçirilməsi | Nazirlər Kabineti | 9 fevral 2024-cü il |
| 2. | Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş qızıl və gümüş xatirə sikkələrin hazırlanması | Nazirlər Kabineti | İl ərzində |
| 3. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar ümumtəhsil məktəblərində inşa yazı müsabiqələrinin və olimpiadaların keçirilməsi | Təhsil Nazirliyi | İl ərzində |
| 4. | Muxtariyyət tarixi ilə bağlı muzeylərdə interaktiv dərslərin keçirilməsi | Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi | İl ərzində |
| 5. | Muxtar respublikanın mədəniyyət və təhsil müəssisələrinin kitabxanalarında və muzeylərdə “Naxçıvan Muxtar Respublikası - 100” mövzusunda guşələrin yaradılması | Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi | İl ərzində |
| 6. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar ağacəkmə aksiyalarının keçirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | Mart-aprel 2024-cü il |
| 7. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı idman və bilik yarışlarının keçirilməsi | Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi | İl ərzində |
| 8. | Naxçıvan Muxtar Respublikasına həsr olunmuş musiqi, bədii və rəsm əsərlərindən ibarət festival, sərgi və müsabiqələrin keçirilməsi | Mədəniyyət Nazirliyi, Rəssamlar Birliyi, Yazıçılar Birliyi, Bəstəkarlar Təşkilatı | İl ərzində |
| 9. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə tədbirlərin keçirilməsi | Naxçıvan Muxtar Respublikasının dövlət orqanları, idarə, müəssisə və təşkilatları | İl ərzində |
| | Naxçıvan Muxtar Respublikasında dərc edilən qəzet və jurnalların yubileyə həsr olunmuş xüsusi nömrələrinin buraxılması | Muxtar respublikanın media qurumları və aidiyyəti dövlət orqanları | Fevral 2024-cü il |

| | | | |
|---|---|---|---|
| 10. | Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlərə aid forumun keçirilməsi | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi | İl ərzində |
| 11. | Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tamaşaların, konsert proqramlarının nümayiş etdirilməsi, ölkənin rayonlarına və xarici ölkələrə qastrol səfərlərinin təşkili | Mədəniyyət Nazirliyi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı, Naxçıvan Dövlət Filarmoniyası | İl ərzində |
| 12. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar internet web-saytın yaradılması | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | İl ərzində |
| 13. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar statistik toplusunun hazırlanaraq nəşr olunması | Dövlət Statistika Komitəsi | İl ərzində |
| 14. | "Naxçıvan-100" etiketləri ilə mineral su, şərab və digər məhsulların istehsal edilməsi | İqtisadiyyat Nazirliyi, Naxçıvan Sahibkarlar Konfederasiyası | İl ərzində |
| 15. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar şəhid və qazi ailələri ilə bağlı sosial tədbirlərin keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | İl ərzində |
| 16. | Muxtariyyətin 100 illiyi ilə bağlı sənədli filmlərin, verilişlərin və videoçarxların hazırlanıb nümayiş etdirilməsi | Televiziya və Radio Verilişləri QSC | İl ərzində |
| 17. | Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş poçt markaları, zərflər və digər çap məmulatlarının buraxılması | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | İl ərzində |
| 18. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar turizm marşrutlarının təşkili və alpinistlərin Haçadağa yürüşlərin təşkil edilməsi | Turizm Departamenti | İl ərzində |
| 19. | Naxçıvan Muxtar Respublikasının inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu mövzusunda konfransın keçirilməsi | Nazirlər Kabineti | May 2024-cü il |
| 20. | Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyə həsr edilmiş hədiyyə və suvenirlərin hazırlanması | İqtisadiyyat Nazirliyi, Mədəniyyət Nazirliyi | İl ərzində |
| 21. | Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş elmi konfransların keçirilməsi | AMEA-nın Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti | İl ərzində |
| 22. | Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi və satış yarmarkasının keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | İl ərzində |

| | | | |
|---|---|---|---|
| 23. | Naxçıvanın muxtariyyət tarixi ilə bağlı arxiv tədqiqatlarının aparılması | Dövlət Arxiv İdarəsi | İl ərzində |
| 24. | Naxçıvan Muxtar Respublikasının istirahət və müalicə mərkəzlərinə turların təşkili | Həmkarlar İttifaqları Şurası | İl ərzində |
| 25. | Tibbi müayinə və digər tibbi aksiyaların keçirilməsi | Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | İl ərzində |

Naxçıvan Muxtar Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
11 yanvar tarixli 3s nömrəli
Sərəncamı ilə təsdiq edilmişdir

**2 nömrəli əlavə**

## Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi üzrə Təşkilat Komitəsinin

## T Ə R K İ B İ

**Təşkilat Komitəsinin sədri**

| | |
|---|---|
| Elşad Əliyev | - Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini. |

**Təşkilat Komitəsinin üzvləri:**

| | |
|---|---|
| Aləm Bağırov | - Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri; |
| Ceyhun Cəlilov | - Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri; |
| Abbas İsmayılov | - Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən; |
| Rahid Ələkbərli | - Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən; |
| Həsən Seyidov | - Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən; |
| Həsən İsmayılov | - Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən; |
| Məcid Seyidov | - Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən; |
| Elxan Nəcəfov | - Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən; |
| Əkbər Novruzov | - Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin direktoru; |
| Sahil Tahirli | - “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri; |
| İsmayıl Hacıyev | - Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin sədri; |
| Elbrus İsayev | - Naxçıvan Dövlət Universitetinin rektoru; |

| | | |
|---|---|---|
| Qəzənfər Abdullayev | - | Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri; |
| Mənşur Gülməmmədli | - | “Naxçıvan” Beynəlxalq Hava Limanının direktoru; |
| Asim Yadigar | - | Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri; |
| Ülviyyə Həmzəyeva | - | Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri; |
| Sara Əzimova | - | “Şərq qapısı” Qəzeti Redaksiyasının baş redaktoru. |